# HƏRBİ QƏNİMƏTLƏR PARKI

**Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin sərkərdə məharətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun gücünün, qüdrətinin, yüksək döyüş ruhunun nəticəsində təcavüzkar Ermənistanın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımız azad edildi. Bu möhtəşəm Qələbə bütün dünyaya xalqımızın torpaq-yurd sevgisini, haqq-ədalət uğrunda mübarizə əzmini, milli birliyini nümayiş etdirdi.**

**Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Qələbənin əbədiləşdirilməsi məqsədilə möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə ötən il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı oldu. Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti, məhz dövlətimizin başçısına təqdim edildi. Həmin tarixi gün yaddaşlara əbədi həkk olundu. Böyük qürur hissi ilə ziyarət etdiyimiz Hərbi Qənimətlər Parkı əvvəllər Nobel prospekti adlanan indiki "8 Noyabr" prospektində yerləşir.**

## ORDUMUZUN, SİLAHLI QÜVVƏLƏRİMİZİN GÜCÜNÜN NÜMAYİŞİ





2020-ci il noyabrın 8-i tariximizə Zəfər Günü kimi yazıldı. Həmin gün Şuşanın işğalına son qoyuldu, düşmən diz çökdü və iki gündən sonra kapitulyasiya aktını imzaladı.

Müzəffər Ali Baş Komandan hər zaman bildirirdi ki, vaxt gələcək Qarabağ işğaldan azad olunacaq və bu istiqamətdə qalib xalq kimi zəfərimizi təcəssüm etdirən addımlar atacağıq. Hər addımını incə detalına kimi müəyyənləşdirən, uzaqgörən siyasətçi olan ölkə başçısı hələ müharibənin gedişində bildirirdi ki, düşməndən qənimət kimi götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planları da mövcuddur. Bu baxımdan da əminlik və qürurla deyirik ki, tarixə adını qızıl hərflərlə yazan Ali Baş Komandanımız xalqına verdiyi sözə həmişəki kimi, yenə də sadiq qaldı. Məhz Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə qısa zaman çərçivəsində görülən işlərin nəticəsi olaraq açıq səma altında muzey - Hərbi Qənimətlər Parkı salındı.

Ermənilər vaxtilə Azərbaycan xalqının hissləri ilə oynayaraq, Birinci Qarabağ müharibəsindən sonra ələ keçirdikləri şəxsi maşınların nömrələrini işğal edilmiş torpaqlarda nümayiş etdirir və bununla da azərbaycanlıları öz dədə-baba torpaqlarından didərgin saldıqlarını "sübut etmək" istəyirdilər. Ermənilərin uzun illər ərzində bu lövhəni xarici turistlərə nümayiş etdirərək orduları haqqında yaratdıqları mifi Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində yerlə bir etdi. Azərbaycanlılar, əli silahsız əhali, öz şəxsi maşınlarını qoyub çıxmışdılarsa, ermənilər Azərbaycanın Ali Baş Komandanının qətiyyəti, prinsipiallığı, qəhrəman əsgər və zabitlərimizin döyüş əzmi qarşısında tab gətirə bilməyərək canlı qüvvəni, postları, ağır texnikalarını, raket komplekslərini, hərbi nəqliyyat vasitələrini, silah və sursatlarını qoyub qaçır, fərarilik edirdilər. Həmin o sursatların hamısı bu gün bu parkda Azərbaycan xalqına və bütün dünyaya nümayiş olunur. Bu baxımdan da Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə xüsusi əhəmiyyətli və olduqca mənayüklü bir rəmzdir. Bu, düşmənə ən layiqli cavabdır. Azərbaycan ordusu çox böyük uğura imza atıb. Erməni ordusuna məxsus çox sayda hərbi texnika, tank, ağır silahlar qənimət kimi ələ keçirilib.

Unikallığı ilə seçilən bu parkda Ermənistan silahlı qüvvələrinə məxsus, Rusiya istehsalı tank, "Qrad" qurğuları, top və digər müharibə texnikası nümayiş etdirilir.

Parkda 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazisində 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və məftil kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərəçarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər və lent tipli məftil maneələri nümayiş etdirilir. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən ibarətdir.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib. Belə ki, döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Bu gün həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə Parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış "İsgəndər M" reketinin qalıqları da var.

Nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla, saz vəziyyətdə tırtıllı ağır texnika da yer alıb. Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar.

Vurğulamaq lazımdır ki, 44 gün davam edən Vətən müharibəsində döyüş, eyni zamanda informasiya cəbhəsində də davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən - Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir.

Demək olar ki, parkın ərazisindəki hər bir element nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.

Parkda döyüş postu və əsgər kazarması, kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir. Burada həmçinin, erməni əsgərlərinin qənimət götürülmüş dəbilqələri də sərgilənir və ziyarətə gələn hər kəsə Azərbaycanın apardığı hərbi əməliyyatların necə diqqətçəkən olduğunu xatırladır.

Xüsusilə qeyd etmək lazımdır ki, bu gün Bakının Dənizkənarı bulvarında salınan Hərbi Qənimətlər Parkı yaddaşlara həkk olunan 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbənin nümayişi baxımından böyük əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə sərgilənən eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa imkan yaradır. Çünki burada 44 günlük müharibənin demək olar ki, bütün ssenariləri əks olunur. Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin dediyi kimi: "Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu qələbələri əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər".

## Burada məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsi təqdim olunur















Parkın fəaliyyətə başladığı gündən artıq bir il ötür. Lakin buna baxmayaraq, hələ də istər respublikamızın sakinləri, istərsə də ölkəmizə təşrif buyuran qonaqlar buranı bir dəfə seyr etmiş olsalar belə təkrar gəlməkdən məmnunluq duyduqlarını bildirirlər. Biz də parkı ziyarət edərkən ziyarətçilərdən paytaxt sakini Esmira Əliyeva və qardaş Türkiyənin vətəndaşı olan Senan Öztürkün fikirlərini öyrəndik. Maraqlısı o idi ki, parkı seyr edən iki qardaş dövlətin vətəndaşları ayrı-ayrılıqda eyni fikirləri söylədilər. Müsahibə götürdüyümüz hər iki şəxs parkda təkrar-təkrar olduqlarını qeyd etdilər. Parkı seyr edərkən böyük qürur hissi keçirməklə yanaşı, burada mənəvi rahatlıq tapdıqlarını bildirib, Hərbi Qənimətlər Parkının ərsəyə gəlməsi üçün canından-qanından keçən şəhidlərimizə Tanrıdan rəhmət, qazilərimizə şəfa, dövlət başçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevə möhkəm cansağlığı, uğurlar və sonsuz təşəkkürlərini ifadə etdilər.

Bəli, bu gün böyük maraqla tamaşasına gəldiyimiz, seyr etdiyimiz park açıq səma altında muzeyi xatırladır. Burada nümayiş etdirilən eksponatları isə həyəcansız izləmək mümkün deyildir. Düşünürsən ki, bu qənimətlər asanlıqla əldə olunmayıb, Azərbaycan əsgərinin qanı, canı bahasına mümkün olub. Əminik ki, Azərbaycanın gözəlliyini görmək üçün bu ölkəyə ayaq basan hər bir əcnəbi bu parka baş çəkəcək, xalqımızın qəhrəmanlığının şahidi olacaq. Çünki buradakı silah-sursat adi taxta, dəmir parçası deyil, Azərbaycan əsgərinin qələbəsinin, şücaətinin rəmzidir.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**